# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

4 oktyabr 2018-ci il

Cümə axşamı

№ 39 (3403)

Qiymәti 40 qәpik




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

***Dövlətimizin başçısı oktyabrın 1-də prokurorluq orqanlarının əməkdaşlarını və veteranlarını Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edib.***

## AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUĞUNUN BİR QRUP ƏMƏKDAŞININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə və Azərbaycan Respublikasında qanunçuluğun təmin edilməsində, ağır və xüsusilə ağır cinayətlərin istintaqının aparılmasında, korrupsiyaya qarşı mübarizədə, məhkəmədə dövlət ittihamının müdafiə olunmasında yüksək peşəkarlıq göstərdiklərinə, xidməti vəzifələrinin yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşları təltif edilsinlər:

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Qaralov Zakir Bəkir oğlu

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əliyev Kamran Bayram oğlu
Əsgərov Namiq Əli oğlu
Usubov Rüstəm Sabir oğlu
Vəliyev Xanlar Rüstəm oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Abbasov Elşən Akif oğlu
Abbasov İlqar Rza oğlu
Əhmədov Eldar İbad oğlu
Nağıyev Əli Nağı oğlu
Rəcəbov Nazim Hafiz oğlu
Sultanov Müqəddəs Hətəm oğlu
Şahverdiyev Səbuhi Zəhmət oğlu

**"Tərəqqi" medalı ilə**

Ələkbərov Taryel Əkbər oğlu
Həsənəliyev Fazil Əsgər oğlu
Həsənov Yaşar Əli oğlu
İmanov Sərdar Eyzam oğlu
İmranov Şəfahət Aydın oğlu
Rəsulov Fuad Mirmehti oğlu
Talıbov Məhərrəm Yusif oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abdullayev Natiq Saleh oğlu
Ağayev Elşad Cəlil oğlu
Axundov Aqil Asif oğlu
Ələsgərov Fəxri Murtuz oğlu
Əhmədov Ülvi Rövşən oğlu
Əsgərov Əsrafil Cəfər oğlu
Hadıyev Ramazan Ədyar oğlu
Həsənov Mürvət Kamil oğlu
İbrahimov Salman Müzəffər oğlu
Kərimbəyli Aygün Əli qızı
Məmmədov Heydər Vidadi oğlu
Məmmədov Qürbət Surxay oğlu
Musayev Emin Özbək oğlu
Qayıbov İsmayıl İsmət oğlu
Qocayev Mehman Alı oğlu
Quliyeva Gülşən Əzizulla qızı
Rzayev Ramil Əli oğlu
Sarıkişiyev Asəf Vaqif oğlu
Səfərov Qabil Qurban oğlu
Talibli Nigar Ağakişi qızı
Talıbov Kamal Hüseyn oğlu
Verdiyev Amid Asif oğlu
Vəliyev Teymur İbrahim oğlu
Zeynalov Rauf Nurəddin oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 28 sentyabr 2018-ci il.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANA SƏFƏRİ



Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün sentyabrın 27-də Tacikistan Respublikasına səfərə gedib.

Sentyabrın 28-də Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Prezidentlər birgə foto çəkdiriblər.

Sonra görüşdə iştirak edən dövlət başçıları birgə foto çəkdiriblər.

Sentyabrın 28-də Düşənbədə MDB Dövlət Başçıları Şurasının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə iclası olub.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda iştirak edib.

İclasda bəzi prosedur məsələlərə baxılıb.

Sonra dövlət və hökumət başçıları iclasda müzakirə olunmuş bir sıra sənədləri imzalayıblar.

Bununla da MDB Dövlət Başçıları Şurasının iclası başa çatıb.

Sentyabrın 28-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

Azərbaycan Prezidenti rəsmi qəbulda iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasına səfəri sentyabrın 28-də başa çatıb.

## BAKIDA IX AZƏRBAYCAN-RUSİYA REGİONLARARASI FORUMUNUN RƏSMİ AÇILIŞ MƏRASİMİ OLUB

### AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN MƏRASİMDƏ İŞTİRAK EDİBLƏR

Sentyabrın 27-də Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə iştirak ediblər.

Azərbaycan və Rusiya prezidentləri açılış mərasimində çıxış ediblər.

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.

Azərbaycan və Rusiya prezidentləri görüşdə çıxış ediblər.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin söhbətlərini çay süfrəsi arxasında davam etdiriblər.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Düşənbədə MDB Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında söhbət olub.

Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına, tərəflərin təmas xəttində və Ermənistan ilə Azərbaycan arasındakı sərhəddə insidentlərin qarşısının alınması üçün atəşkəs rejiminin möhkəmlənməsinə dair danışıqlar prosesinə sadiq olduqlarını bildiriblər.

Tərəflər müvafiq strukturlar arasında operativ əlaqə qurulması üçün mexanizmlərin yaradılmasını qərara alıblar.

***Bakıda cüdo üzrə dünya çempionatı keçirilib.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer sentyabrın 26-da Milli Gimnastika Arenasında keçirilən yarışları izləyiblər.***

**Sentyabrın 27-də cüdo üzrə dünya çempionatı çərçivəsində qarışıq komanda yarışları keçirilib.**

**Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri, ölkəmizdə işgüzar səfərdə olan Rusiya Prezidenti Vladimir Putin, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer yarışlara baxıblar.**

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 26-da Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Qəzənfər oğlu Quliyevə general-polkovnik ali hərbi rütbəsi verilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı sentyabrın 26-da Azərbaycan Respublikasının Qızılağac Milli Parkının yaradılması haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri sentyabrın 26-da "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Sentyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev Gəncə şəhərində yeni infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Sentyabrın 27-də dövlətimizin başçısı Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Sədr zati-aliləri cənab Si Cinpinə təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı sentyabrın 29-da Sulavesi adasında baş vermiş təbii fəlakəti nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya başsağlığı teleqramı göndərib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı sentyabrın 29-da mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin xarici ölkələrdə keçirəcəyi tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 1-də Kürdəmir rayonunun Bakı–Ələt–Qazax–Gürcüstanla dövlət sərhədi (184 km)–Pirili–Muradxan–Sor avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı oktyabrın 1-də Salyan rayonunun Arbatan–Marışlı–Seyidsadıqlı–Quyçu avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri oktyabrın 1-də milli bayram – Alman Birliyi Günü münasibətilə Almaniya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Frank-Valter Ştaynmayerə təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Oktyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyev Koreya Respublikasının milli bayramı münasibətilə Prezident zati-aliləri cənab Mun Ce-inə təbrik məktubu göndərib.**

## DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri, general-polkovnik Ramil Usubov sentyabrın 29-da Lənkəran Şəhər Rayon Polis Şöbəsində daxili işlər orqanlarının fəaliyyətinə və səlahiyyətinə aid məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarından qəbula gələn 32 nəfəri şəxsən dinləyən nazir R.Usubov onları narahat edən problemlərin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün Nazirliyin aidiyyatı baş idarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb.

Tədbirdə iştirak edənlər göstərilən diqqət və qayğıya, bölgələrdə mütəmadi olaraq vətəndaşların qəbulunun təşkilinə, icra orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ münasibətə və həssas yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

*29 sentyabr 2018-ci il.*

Azərbaycan Xalq Cümhuriyyəti ilə yaşıd olan, xalqımızın müstəqil demokratik dövlət quruculuğu tarixində ən önəmli hadisələrdən biri-milli prokurorluq orqanlarının yaranmasının 100-cü ildönümünü qeyd etdik. Bu əlamətdar yubiley münasibəti ilə Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralovun «Azərbaycan» qəzetinin 28 sentyabr 2018-ci il tarixli sayında geniş məqaləsi dərc olunub. Müstəqilliyimiz, dövlət quruculuğu, qanunçuluğun qorunması kimi çətin və şərəfli yolda bizimlə həmişə birgə, çiyin-çiyinə addımlayan prokurorluq orqanlarının tarixi, bu günü və inkişafı ilə bağlı dəyərli fikirləri azacıq ixtisarla diqqətinizə çatırırıq.

*Bax səh.2.*

# AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORU, I DƏRƏCƏLİ DÖVLƏT ƏDLİYYƏ MÜŞAVİRİ CƏNAB ZAKİR QARALOVA

Hörmətli Zakir müəllim!

Yarandığı gündən şərəfli bir xidmət yolu keçən prokurorluq orqanları ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hüquq sahəsində dövlət siyasətini həyata keçirən vahid mərkəzləşdirilmiş təsisat olaraq formalaşmış, demokratik dövlət quruculuğunda fəal iştirak etmiş, cəmiyyətdə böyük nüfuz qazanmışdır.

Prokurorluq sisteminin əməkdaşları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizin inkişafı, qanunçuluğun, insan və vətəndaş hüquqlarının etibarlı müdafiəsi naminə görülən mühüm və əhəmiyyətli işlərin, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edən islahatların müvəffəqiyyətlə davam etməsinə bu gün də layiqli töhfələr verirlər. Eyni zamanda, respublikada konstitusion dövlət quruluşunun möhkəmlənməsi, cinayətlərin, onların ağır və xüsusilə ağır, transmilli mütəşəkkil növlərinin qarşısının alınması, açılması, istintaqı kimi mühüm vəzifələrin yerinə yetirilməsində mətinliyi, prinsipiallığı, xalqa, Vətənə və dövlətə sədaqəti ilə seçilirlər.

Qulluq vəzifələrinin icrasında fərqlənən prokurorluq işçilərinin bu əlamətdar yubiley ərəfəsində də dövlət mükafatlarına layiq görülməsi, o cümlədən Sizin 1-ci dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə təltif olunmanız möhtərəm Prezidentin əməyinizə verdiyi ali dəyərin əyani təsdiqi olmaqla bizi də qəlbən sevindirir.

Davamlı inkişafda olan idarələrarası əməkdaşlıq əlaqələrimizin milli maraqlara, vətəndaşların qanuni mənafelərinə, cinayətkarlığa qarşı mübarizəyə, ictimai asayişin etibarlı qorunmasına, qanunçuluğun möhkəmlənməsinə bundan sonra da xidmət edəcəyinə əminəm.

Prokurorluq orqanlarının yaranmasının 100 illik yubileyi münasibətilə Sizi və respublikanın bütün prokurorluq işçilərini daxili işlər orqanlarının şəxsi heyəti və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, cansağlığı, ailə səadəti, xoşbəxtlik, məsul və şərəfli işinizdə yeni-yeni nailiyyətlər arzulayıram!

Dərin hörmətlə,

***Ramil Usubov,***
***Azərbaycan Respublikasının***
***daxili işlər naziri, general-polkovnik***

**1 oktyabr 2018-ci il.**

**Azərbaycan Xalq Cümhuriyyəti ilə yaşıd olan, xalqımızın müstəqil demokratik dövlət quruculuğu tarixində ən önəmli hadisələrdən biri-milli prokurorluq orqanlarının yaranmasının 100-cü ildönümünü qeyd etdik. Bu əlamətdar yubiley münasibəti ilə Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralovun «Azərbaycan» qəzetinin 28 sentyabr 2018-ci il tarixli sayında geniş məqaləsi dərc olunub. Müstəqillik, dövlət quruculuğu, qanunçuluğun qorunması kimi çətin və şərəfli yolda bizimlə həmişə birgə, çiyin-çiyinə addımlayan prokurorluq orqanlarının tarixi, bu günü və inkişafı ilə bağlı dəyərli fikirləri qısa ixtisarla diqqətinizə çatdırırıq.**

# AZƏRBAYCAN PROKURORLUĞU
## 100 İLLİYİNİ YENİ UĞUR VƏ NAİLİYYƏTLƏRLƏ QEYD EDİR

1 oktyabr 2018-ci ildə Azərbaycanda milli prokurorluq orqanlarının yaranmasının 100 ili tamam olur. Prokurorluq hər bir hüquqi dövlətin zəruri atributlarından biri olduğundan Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunun ilk aylarında həyata keçirilmiş dövlət orqanlarının strukturunun yaradılması prosesi çərçivəsində qəbul edilmiş ən mühüm qərarlardan biri də məhz prokurorluq orqanlarının təsis edilməsi ilə bağlı olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluğun təsis edilməsi yalnız o zaman üçün deyil, həmçinin sonrakı dövrlər üçün, bütövlükdə milli prokurorluq orqanlarımızın hazırkı yüksək inkişaf səviyyəsində formalaşdırılmasının əsasının qoyulması baxımından tarixi əhəmiyyətə malik bir hadisədir.

Xalq Cümhuriyyətinin süqutundan sonra sovet hakimiyyəti illərində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 11 iyul 1922-ci il tarixli "Azərbaycan SSR-in dövlət prokurorluğu haqqında" dekreti ilə Azərbaycan SSR-də sovet prokurorluğunun əsası qoyulmuş, 1936-cı ilin iyul ayında isə Azərbaycan SSR Prokurorluğu Xalq Ədliyyə Komissarlığının tərkibindən çıxarılaraq birbaşa SSRİ Prokurorluğuna tabe edilməklə müstəqil qurum kimi fəaliyyətə başlamışdır.

Sovet hakimiyyəti dövrünün kütləvi siyasi repressiyaları prokurorluq orqanlarının kadrlarından da yan keçməmişdir.

Böyük Vətən müharibəsi illərində digər dövlət strukturları kimi, prokurorluq orqanlarının da işi hərbi vəziyyətə uyğun qurulmuş, orduya 70 prokuror və 163 müstəntiq səfərbər olunmuşdur. Onlardan bir çoxu döyüşlərdə həlak olmuş, böyük əksəriyyəti orden və medallarla təltif edilmişdir.

Sovetlər dönəminin sonrakı illərində səlahiyyətləri hədsiz geniş olan prokurorluq orqanlarının fəaliyyəti uzun illər ərzində hakimiyyət bölgüsü prinsipi ilə uzlaşdırılmamışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ ölkəyə rəhbərliyinin birinci dövründə cəmiyyətdə haqq və ədalətin zəfər çalması uğrunda böyük əzm və fədakarlıqla çalışaraq insan hüquq və azadlıqlarının müdafiəsinin ən ali forması kimi qanunlara eyni cür, dürüst əməl edilməsinə nail olmuşdur. O dövrdə ulu öndərin təşəbbüsü ilə respublikada ali məktəblərin hüquq fakültəsinə qəbulda aparılan islahat nəticəsində sadə ailələrdən çıxan bilikli və istedadlı gənclər hüquqşünas ixtisası alaraq hüquq-mühafizə sistemində, o cümlədən prokurorluq orqanlarında işləməyə başlamış, yüksək vəzifələrə irəli çəkilmişlər.



Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra milli prokurorluq orqanlarının ölkənin hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının qorunmasında çox əhəmiyyəti olan, konstitusion statuslu, yüksək dünya standartlarına və müasir beynəlxalq tələblərə uyğun sivil təsisat kimi formalaşması yalnız ümummilli lider Heydər Əliyevin müəyyən edərək həyata keçirdiyi, hazırda onun layiqli davamçısı, müdrik və uzaqgörən dövlət başçısı İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla reallaşdırılan hüquqi dövlət quruculuğu konsepsiyasının gerçəkləşdirilməsi sayəsində mümkün olmuşdur.

Müstəqil dövlətimizin müntəzəm irəliləyişlərlə müşahidə olunan dayanıqlı və davamlı tərəqqisi prokurorluqda adekvat dəyişikliyin baş verməsinə hərtərəfli şərait yaratmaqla bu dövlət təsisatının ardıcıl və sistemli inkişafına səbəb olmuşdur. Dövlət başçısı cənab İlham Əliyevin son dövrlərdəki tarixi nitqlərinin birində qeyd etdiyi, "Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır" sözləri danılmaz həqiqəti əks etdirir.

Ölkənin hazırkı inkişaf səviyyəsinə uyğun olaraq Azərbaycan Prokurorluğu da bu gün əvvəlki istənilən bir dövrdə olduğundan daha çox inkişaf etməklə müasirləşmiş və fəaliyyətini ən yüksək tələblər səviyyəsində təkmilləşdirmişdir. İnkişaf etmiş dünya dövlətlərinin bu qəbildən olan qurumlarına məxsus olan müsbət keyfiyyətləri özündə birləşdirən, prokurorluğun müasir dövrdə fəaliyyət istiqamətlərinə və roluna dair Avropa Şurasının, Beynəlxalq Prokurorlar Assosiasiyasının və digər nüfuzlu beynəlxalq təşkilatların müəyyən etdiyi standartlara cavab verən Azərbaycan Prokurorluğu, dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına və insan hüquq və azadlıqlarının ən ümdə dəyər kimi qorunmasına xidmət edən, sıralarında öz vəzifə öhdəliklərini layiqincə yerinə yetirən, yüksək mənəvi, əxlaqi və peşə keyfiyyətlərinə malik olan, etik davranış qaydalarına riayət etməklə cəmiyyətin etimadını qazanmış şəxsləri birləşdirən dövlət orqanı kimi fəaliyyət göstərir.

Prokurorluq orqanlarımız hazırkı vəziyyətdə olduğu səviyyədə formalaşanadək tarixin müxtəlif dövrlərindən heç də həmişə hamar olmayan, bəzən isə çətinliklərlə və mürəkkəbliklərlə müşahidə olunan inkişaf yolu keçmişdir. Lakin Azərbaycan Prokurorluğunun kollektivi əsas etibarı ilə xalqımızın öz müstəqilliyi uğrunda apardığı tarixi mübarizənin önündə olaraq şərəfli bir fəaliyyət yolu keçməklə inkişaf etməkdə davam etmiş, hansı şəraitdə fəaliyyət göstərməsindən asılı olmayaraq, son nəticədə xalqına və dövlətinə sədaqətlə qulluq etməyi bacarmış, dövlətçiliyimizin və sabitliyin qorunması, cinayətkarlığa və qanun pozuntularına qarşı mübarizə, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi işinə öz layiqli töhfəsini verə bilmişdir.

Ulu öndər Heydər Əliyevin 26 aprel 2000-ci ildə prokurorluğun rəhbər işçiləri ilə keçirdiyi müşavirədəki tarixi nitqində qeyd olunmuş, prokurorluq orqanları qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi ilə bağlı aparılmış hərtərəfli islahatlar nəticəsində Azərbaycan Prokurorluğu həmin vaxtadək fəaliyyətində mövcud olmuş neqativ cəhətlərdən təmizlənməklə struktur və mahiyyət baxımından tam yenidən qurularaq müasir məzmunlu prinsip və metodlardan istifadə etməklə mütərəqqi normativ hüquqi baza əsasında fəaliyyət göstərən, xalqımızın və dövlətçiliyimizin maraqlarının qorunmasına, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən dövlət təsisatına çevrilmişdir.

Həyata keçirilən ardıcıl və sistemli məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətini tənzim edən, beynəlxalq standartlara və milli dövlətçilik maraqlarına əsaslanan çoxsaylı normativ sənədlərin dövlət başçısı tərəfindən təsdiq edilməsi prokurorluğun normativ bazasını gücləndirmiş və hərtərəfli təmin etmişdir.

Sonrakı illərdə prokurorluğa etimad və inamın yüksəlməsinin nəticəsi olaraq prokurorluq orqanları qarşısında daha önəmli və mühüm vəzifələr qoyulmuş, Azərbaycan Respublikası Prezidentinin siyasi iradəsinə uyğun olaraq dövlətin fəaliyyətinin ən prioritet istiqamətlərindən biri kimi müəyyən edilmiş korrupsiyaya qarşı mübarizə ilə bağlı cinayətlər üzrə ibtidai istintaq və əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi işi bu dövlət təsisatına həvalə edilmiş, prokurorluğun fəaliyyətini tənzimləyən qanunvericiliyin daha da təkmilləşdirilməsi prosesi mütəmadi qaydada həyata keçirilmişdir.

Son dövrlərdə Azərbaycan Respublikası Prokurorluğunun digər hüquq-mühafizə orqanları, ilk növbədə isə daxili işlər, ədliyyə və məhkəmə orqanları ilə əlaqəli şəkildə birgə fəaliyyətinin nəticəsi olaraq cinayətkarlığın dinamikasında və xarakterində ciddi keyfiyyət dəyişiklikləri baş verərək qeydə alınmış cinayətlərin, o cümlədən zorakı, ağır və xüsusilə ağır, cinayətkar qruplar tərəfindən törədilən cinayətlərin sayı ilbəil kəskin surətdə azalmış, mütəşəkkil dəstələr və cinayətkar birliklər tərəfindən törədilən cinayətlər bu xarakterli hadisələrin çox az faizini təşkil etmişdir. Görülmüş sistem xarakterli ardıcıl tədbirlərin nəticəsində kirminogen durum ciddi nəzarət altında saxlanılmaqla özbaşınalığın və qanunsuzluğun tüğyan etdiyi ötən əsrin 90-cı illərinin əvvəlləri ilə müqayisədə qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin sayı dəfələrlə azalmış, əvvəlki illərdə törədilməklə uzun müddət ərzində bağlı qalan bir çox ağır və xüsusilə ağır cinayətlərin açılması, çoxsaylı cinayətkar dəstələrin zərərsizləşdirilməsi və təqsirkar şəxslərin layiq olduqları məsuliyyətə cəlb edilməsi təmin olunmuşdur.

Ümummilli lider tərəfindən prokurorluq işçilərinin peşə bayramı təsis edildikdən sonra bu əlamətdar günün yüksək təntənə ilə keçirilməsinə başlanılmış və 1998-ci ildə respublikamızda ilk dəfə olaraq ulu öndərin şəxsi təşəbbüsü və rəhbərliyi ilə prokurorluq orqanlarının yaradılmasına həsr olunmuş geniş bayram tədbiri təntənəli şəkildə keçirilmişdir.

Həmin ildən başlayaraq, hər il oktyabr ayının 1-i prokurorluq işçilərinin peşə bayramı günü təntənəli şəkildə qeyd olunur.

Milli prokurorluq orqanlarımızın ölkəmiz və dövlətçiliyimiz üçün çox böyük və əlamətdar hadisə olan 100 illik yubileyi xüsusi təntənə ilə qeyd olunur. Azərbaycan Respublikasının 31 may 2018-ci il tarixli qanunu ilə "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018) Azərbaycan Respublikasının yubiley medalı" təsis edilməklə onun Əsasnaməsinin təsdiq edilməsi bu tarixi hadisəyə dövlət başçısı səviyyəsində göstərilən qayğının təsdiqidir.

Sonda əminliklə qeyd etmək istəyirəm ki, prokurorluq işçiləri bundan sonra da ölkə Prezidentinin həyata keçirdiyi müdrik və uzaqgörən dövlət siyasətini tam dəstəkləyərək, respublikamızda həyata keçirilən hüquqi dövlət quruculuğu prosesində, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində fəal iştirak edərək, prokurorluğun fəaliyyətinin müasir dövrün standartlarına uyğun yeni keyfiyyət səviyyəsində qurulması istiqamətində səylərini daha da artıracaq, üzərlərinə düşən bütün vəzifələri yüksək məsuliyyət hissi ilə dərk etməklə, onların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə nail olacaq, cinayətkarlığın bütün təzahürlərinə, digər qanun pozuntularına qarşı mübarizənin gücləndirilməsi, dövlət müstəqilliyimizin və suverenliyimizin müdafiəsi, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunması, qanunçuluğun və təhlükəsizliyin möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi naminə tam gücləri ilə işləyərək respublikamızın daha da inkişafına xidmət edəcəklər.

# QAZAXISTAN MİLLİ QVARDİYASININ BAŞ KOMANDANI ÖLKƏMİZDƏ RƏSMİ SƏFƏRDƏ OLUB

**Sentyabrın 28-də Qazaxıstan daxili işlər orqanlarının vahid sisteminə daxil olan Qazaxıstan Respublikası Milli Qvardiyasının baş komandanı, general-leytenant Ruslan Jaksılıkovun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**

Əvvəlcə cənab R.Jaksılıkov və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarı önünə tər çiçəklər qoyub, əziz xatirəsini ehtiramla yad ediblər.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə tər çiçəklər düzülüb.

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanındakı «Əbədi məşəl» kompleksini ziyarət ediblər.



Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov general-leytenant Ruslan Jaksılıkovu qəbul edib.

Daha sonra Daxili Qoşunların Baş İdarəsində nazir müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədovun general-leytenant Ruslan Jaksılıkovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü olub.

Qonaqları salamlayan general-leytenant Ş.Məmmədov Qazaxıstan Milli Qvardiyası Baş Komandanlığı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasındakı əlaqələrdən və hərbi əməkdaşlıq münasibətlərinin inkişafından söz açıb, keçirilən belə görüşlərin əməkdaşlığımızın daha da genişlənəcəyinə müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib.

Görüşdə hər iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyi yüksək qiymətləndirilib, belə əməkdaşlığın, təcrübə mübadiləsinin ölkələrimizin ümumi mənafelərinə xidmət etdiyi vurğulanıb. Qonaqlara qoşunların yaranma tarixi, strukturu, normativ-hüquqi bazası, döyüş yolu və inkişafı barədə ətraflı məlumat verilib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən general-leytenant R.Jaksılıkov öz növbəsində Azərbaycana səfər etməsindən məmnunluğunu ifadə edərək iki ölkənin müvafiq qurumları arasında əlaqələri yüksək qiymətləndirib.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

Qeyd edək ki, oktyabrın 1-dək davam edən səfər zamanı nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində təlim-tədrisin təşkili, kursantlar üçün yaradılmış şərait, o cümlədən Bakı şəhərində yerləşən "N" saylı hərbi hissə ilə tanış olub, sonra Daxili Qoşunların Təlim Mərkəzində xüsusi-taktiki təlimi izləyib, həmçinin Heydər Əliyev Mərkəzini və paytaxtımızdakı digər tarixi, mədəniyyət abidələrini ziyarət edib.

# XƏZƏR SƏHVİ BAĞIŞLAMIR...

***"Polis hər gün döyüşür. Bu bəlkə də çoxlarına qəribə gələr, ancaq gözümüzü açıb çevrəmizə baxınca bunun şahidi oluruq".***

**Bu fikirlər vətəndaşlar tərəfindən DİN rəhbərliyinə ünvanlanmış məktublardandır. Sadəcə, onları ümumiləşdirib sizlərlə bölüşməyi özümə borc bildim. Və elin gözünün tərəzi olduğuna, haqqı-nahaqdan seçdiyinə bir daha şahidlik etdim.**

**Elə bu günlərdə paytaxtımıza yağan leysan yağışın fəsadlarının aradan qaldırılmasında, yolda köməksiz qalanların sağ-salamat mənzil başına çatdırılmasında polisin, sözün əsl mənasında, fədakarlığı barədə sosial şəbəkələrdə paylaşımlar "Mənim polisim məni qoruyur" deyənlərin haqlı olduğunu bir daha təsdiqləyir.**

Polis həm də təbiətimizin-meşələrin, Xəzərimizin qoruqçusudur. Bu fikri əbəs yerə yazmadım. "Qanunsuz balıq ovlayanları, ağac kəsənləri, su tutarları, su hövzələrini çirkləndirənləri polis cərimələdi" sərlövhəli xəbərlərə yəqin ki, hər biriniz rast gəlmisiniz.

Və bəlkə də bu yaxınlarda "Xəzər daha bir balıqçının canını aldı" başlığı ilə gündəmi zəbt edəcək xəbərdən üzüləcəkdiniz. Onun gözü yolda qalan ailəsinin isə nələr yaşayacağını təsəvvür etmək elə də çətin deyil. Ancaq...

Bu dəfə də polis köməyə çatdı, bu dəfə də bir insan həyatını "dəli" dalğaların ağzından aldı. Məlumatı oxuduqdan sonra **NBPİ Su Nəqliyyatında Polis İdarəsinin rəisi, polis polkovniki Rövşən Eyyubovla** əlaqə saxladım. "Yenə də həyat qurtardınız" fikrimə: "Şükür ki, bir ailəni həm nigarançılıqdan qurtardıq, həm də Xəzəri daha bir can almağa qoymadıq",- deyib cavab verdikdən sonra məni xilaskar polislərimizlə görüşmək, onlarla baş verən hadisə barədə ətraflı söhbət aparmaqdan ötrü idarəyə dəvət etdi.

Yeri gəlmişkən bildirim ki, Xəzər dənizinin Azərbaycan sektoru, su hövzələri, su tutarları, Qızılağac Dövlət Qoruğu, Abşeron dövlət Qoruğu, Ağgöl Dövlət Qoruğu və Sarısu Ovçuluq Təsərrüfatı, eləcə də Şərbətgöl, Mahmutçala, Qırmızıçala və digər obyektlər Su Nəqliyyatında Polis İdarəsinin xidməti ərazisindədir. Sadalanan ərazilərdə vaxtaşırı proflaktik tədbirlər keçirilir və söhbətlər aparılır. Bir sözlə, təbiətimizə kəm baxanlar, onun qəniminə çevrilənlər qarşıla- rında onları görəcəklər.

İdarənin əməkdaşları mütəmadi reydlər də keçirirlər. Məqsəd, dediyim kimi, həm təbiəti, həm də Xəzərin xəzrisini vecinə almayıb nəfsinə güc gələ bilməyən, bununla da həyatını təhlükədə qoyanların dadına çatmaqdır. Ölkəmizdə balıq tutmaq yasaq deyil və bu qanunla tənzimlənir. İlin elə ayları var ki, balıq və ya quş ovlamaq qadağandır. Çünki balıqlar kürü tökür, ov quşları da yumurta qoyurlar. Bu qadağaları göz önünə almayanlar isə, əlbəttə ki, cəzalandırılır.

Həmkarlarımız balıq tutmaq üçün müraciət edənlərin sənədlərini yoxlamaqla yanaşı, onların texniki təchizatını da diqqətdə saxlayırlar. Maarifləndirmə də ki, öz yerində. Təəssüflər olsun ki, balıq tutmaq üçün müəyyən olunmuş su sərhəddini keçənlər həyatı təhlükə yaşayırlar. Ancaq darda qalmırlar, yenə haraylarına polis çatır...

*Ardı 3-cü səhifədə.*

# UNUTSAQ ...UNUDULARIQ

**Hər dəfə "Müəllimlər günü" yaxınlaşdıqca xəyal məni düz yarım əsr əvvələ qaytarır.**

1967-ci il... Əlimə məktəbli çantası götürüb kəndimizdəki orta məktəbin 1-ci sinfinə qədəm qoyduğum 1 sentyabr günü. Adilə müəllimənin mənə yazıb-oxumağı öyrətdiyi günlər. (Qeyd edim ki, ilk müəlliməm hazırda Abşeron rayonunda məcburi köçkün həyatını yaşayır, təqaüdçüdür, ömrü uzun olsun). Sonra Əziz müəllimim var idi, haqq dünyasındadır, xatirəsi mənimçün həmişə əzizdir. İndi əbədiyyətə qovuşmuş müəllimlərim də olub ki, onların da xatirəsini daim uca tuturam. Bu sırada oxuduğum orta məktəbin direktoru olmuş Yaqub müəllim, tarix fənnini tədris edən Lətif müəllim, Əsəd müəllim, coğrafiyanı öyrədən İlyas müəllim, riyaziyyatı bizə sevdirən Şiraslan müəllim (bu müəllimimizin böyük oğlu Knyaz Məmmədov hazırda fizika-riyaziyyat elmləri doktoru, Bakı Dövlət Universitetinin professorudur), rus dilinə maraq yaradan Bahadur müəllim, Saday müəllim... nə qədər ki, həyatdayam, heç vaxt yaddaşımdan silinməyəcəklər. Çünki Azərbaycan müəllimi adını ləyaqətlə daşımış bu insanlar öz nurlu şəxsiyyətləri ilə taleyimizə işıq salmış, Tanrının yazdığı ömür qisməti bitən zamansa Yer üzündəki şərəfli missiyalarını öz ardıcıllarına əmanət edib əbədiyyətə qovuşmuşlar.

Belə ardıcıllardan biri də orta məktəbin sonuncu sinfində bizə dil-ədəbiyyat fənnini tədris etmiş Nazir müəllim idi ki, (hazırda Bakıda yaşayır və pedaqoji fəaliyyətlə məşğuldur) mən də ona baxıb müəllim olmaq fikrinə düşmüşdüm ... Amma sonra anladım ki, müəllim olub tarixin ən qədim dövrlərindən üzübəri insanları nura doğru aparan maarifçi ziyalılar cərgəsinə qoşulmaq o qədər də asan məsələ deyil.

Mətləbdən çox da uzaqlaşmayım. Qeyd etdiyim kimi, oxuduğum orta məktəbi, onun cəfakeş müəllimlərini hər zaman hörmətlə xatırlayıram. Məktəblə bağlı xatirələrim çoxdur. Məktəbin həyətində velosipeddən yıxılıb ciddi xəsarət almağımdan tutmuş, əlimə jurnal götürüb dördüncülərə (IV sinif şagirdlərinə) riyaziyyat dərsi keçməyimə qədər. Yox, mən müəllim deyildim, əsgəri xidmətimi başa vurduqdan sonra Bakıda yaşayırdım və bir gün kəndimizə getmişdim...

Hər dəfə də məktəbə gedib müəllimlərimlə görüşməyi özümə borc bilirdim. Bu dəfə də belə oldu. Rəhmətlik Yaqub müəllim dedi ki, sən bizim ümidverici şagirdimiz olmusan, götür jurnalı, get dördüncülərə dərs keç. Mən də dedim "Baş üstə !".

Bir dəfə də (neçənci sinifdə oxumağımı dəqiq xatırlamıram) riyaziyyat dərsində rəhmətlik Yaqub müəllim gördü ki, hamı dəftərində məsələ-misal yazır, mən isə sakitcə oturmuşam. Soruşdu ki, sən niyə yazmırsan. Utana-utana dedim ki, dəftərim dolub, yazmağa yer yoxdur. Cibindən bir açar çıxarıb uzatdı mənə və dedi ki, get "Müəllimlər otağı"na, "Partiya sandığı"nı aç, oradan bir damalı dəftər götür. Sonralar bildim ki, Yaqub müəllim həm də məktəbin ilk partiya təşkilatının katibi imiş və "Partiya sandığı" adlandırılan o dəmir qutu da adi seyf imiş.

Bəli, illər sonra anlayırsan ki, bu kişilər adi müəllimlər yox, sözün əsl mənasında, maarifçi ziyalılar imişlər.

Respublikamızın hər yerində – ucqar dağ kəndindən tutmuş, paytaxt Bakıda da "Müəllimlər günü"nün böyük sevinc və fərəhlə qeyd olunduğu bugünlərdə bir müəllimimi də unutmamışam – Mahir müəllimi. Daxili işlər orqanları əməkdaşlarının böyük əksəriyyətinin yaxşı tanıdığı, zəngin bilik və təcrübəsindən yararlandığı, Polis Akademiyasının yarandığı ilk gündən rəis müavini vəzifəsində çalışan hüquq elmləri doktoru, professor, respublikanın Əməkdar müəllimi adını şərəflə daşıyan Mahir Əhmədovu deyirəm. Hüquq elmindən az-çox nə öyrənmişəmsə bu fədakar müəllimimin sayəsində öyrənmişəm. Onunla hər dəfə ünsiyyətdə olmaq insana böyük zövq verir. Qarşısındakı həmsöhbətini diqqətlə dinləmək səriştəsi, təmkini, yüksək mədəniyyəti, tələbkarlığı, iradəsi, nikbinliyi, gələcəyə inam hissi, uzaqgörənliyi ondan dərs almış hər bir insan üçün örnəkdir. O, bu gün də uğurla çalışdığı xüsusi təyinatlı təhsil ocağında neçə-neçə gəncin təliminin, tərbiyyəsinin qayğısına qalır, onlara çətinlikləri dəf etmək qaydalarını öyrədir, yeniyetmələrin düşüncə tərzini məhdudlaşdıra biləcək bütün maneələrin aradan qaldırılmasına çalışır ...




Beləliklə, əziz oxucular, düşünürəm ki, bu gün həyatda tutduğumuz mövqeyə görə hər birimiz öz müəllimlərimizə borcluyuq. Axı, müəllim cəmiyyətin ən nüfuzlu, ən mötəbər insanıdır. Bizim mənəvi dünyamızın təməlini qoyan, xarakterimizi, dünyagörüşümüzü formalaşdıran, bizi ictimai münasibətlər sisteminə qovuşduran məhz müəllimlərimizdir. Onları unutmayaq !

**Bayramınız mübarək olsun, əziz müəllimlərimiz !**

***Rahib Qarayev,***
***polis polkovniki***

# XƏZƏR SƏHVİ BAĞIŞLAMIR...

*Əvvəli 2-ci səhifədə.*

Düzü, çoxdandı ki, buraya yolum düşmürdü. Məni ilk qarşılayan üçrəngli bayrağımız oldu. İdarədə xeyli dəyişiklik vardı. Şəhid polislərimizin şəkillərinin yer aldığı stend keçmişin unudulmadığına, əksinə, onların hər zaman xatırlandığına dəlalət edirdi. Bir də ki, artıq "Görünən dağa nə bələdçi."...

"Bütün saytlar yazdı, ancaq biz öz doğma qəzetimizdə onun yer almasını istəyirdik, idarə rəisi məlum hadisə ilə bağlı sizə məlumat verməyə məni görəvləndirdi",- deyən polis mayoru Elmir Süleymanov danışmağa başladı: "Hadisə sentyabrın 19-da baş verib. Bakı buxtasında reyd keçirirdik. Durbinlə ətrafı seyr edərkən gördüm ki, Nargin adasının yaxınlığında bir qayıq var. Diqqətimi çəkdi. Elə bu vaxt gördüm ki, qayıqdakı adam qəflətən səndirləyib suya düşdü. Bunu görüncə tez "Qartal" qayığımızla köməyə tələsdik. Məlum oldu ki, daha çox balıq tutmaq üçün müəyyən olunan məsafədən qat-qat uzağa gedən balıqçının qayığının mühərriki xarab olub və onu təmir etməyə çalışarkən suya yıxılıb. Suda boğulanın halını bir anlıq təsəvvür edin... Peşimançılığı üzündən oxunurdu. Bizi görəndə sevindiyindən hönkürməyə başladı...



Balıqçını sahilə çıxardıq, ilkin tibbi yardım göstərdik. Tez yanımızda olan paltarlardan verdik ki, əynini dəyişsin..."

**Su Nəqliyyatında Polis İdarəsinin Brokonyerliyə qarşı mübarizə və balıq ehtiyatlarının mühafizə bölməsinin rəisi, polis mayoru Elmir Süleymanov** Bakı şəhərində doğulub. BDU-nun Hüquq fakultəsini bitirib. 1999-cu ildən DİO-da xidmətdədir. Yeri gəlmişkən, bölmədə 5 zabit və 3 polis nəfəri xidmət aparır.

**İnspektor, polis baş leytenantı Xəqani Məhərrəmov** 1981-ci ildə doğulub. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib. 2010-cu ildən Su Nəqliyyatında Polis İdarəsində xidmətdədir. Qardaşı da polis əməkdaşıdır.

**Polis baş leytenantı Haciəli Şıxəliyev** 1991-ci ildə polis ailəsində dünyaya göz açıb. Bakı Dövlət Universitetinin məzunudur. 2015-ci ildə daxili işlər orqanlarına qəbul olunub. Cəmi bir ildir ki, Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşıdır. Onun da qardaşı polisdir.

Və burada gəldiyim qənaəti, təəssüratlarımı bölüşmək üçün idarənin rəisi, polis polkovniki Rövşən Eyyubovla görüşəndə dedi ki, əsas hədəfimiz bizə etibar olunan işi yüksək məsuliyyətlə yerinə yetirməkdir, DİN rəhbərliyinin diqqət və qayğısına bu cür xidmətimizlə, polis adına və andına sadiqliyimizlə cavab verməliyik. Rəis həmçinin bildirdi ki, məlum hadisədən sonra o da balıqçılarla görüşüb, doqquz saat dənizdə qalaraq onlarla maarifləndirici söhbətlər aparıb. Bir də dedi ki, görüşlər heç də həmişə ürəkaçan olmur.

Bəzən brokonyerlər polis əməkdaşlarına hücüm çəkirlər, onların qayığını zədələyirlər. Ancaq polislərimiz çeviklikləri, üzməyi bacarmaqları sayəsində cinayətkarlara aman vermirlər, onları qanuna təslim edirlər.

R.Eyyubov dedi ki, hava şəraitindən asılı olmayaraq, hər gün reydlər təşkil edilir. Digər dövlət qurumları ilə birbaşa, həm də mütəmadi əlaqə saxlayırlar. Suda batmaq təhlükəsi olan balıqçıların "102 xidməti zəng mərkəzinə" etdikləri bircə zəngdən sonra onların həyatını idarənin əməkdaşları anındaca xilas etmək üçün hərəkətə keçirlər. Bir sözlə, operativlik və çevik reaksiya onların devizidir.

Sağollaşanda idarə rəisi: "Siz də qəzetiniz vasitəsilə insanlarımızı maarifləndirin və onlara deyin ki, bu sudur, dili, ağzı yoxdur, bir də ki, Xəzər səhvi heç vaxt bağışlamır",-dedi...

***Hafiz Təmirov,***
***polis mayoru***

# HƏR KÖNÜLDƏ YERİNİZ VAR

**Müəllim... Adi söz deyil bu... Müəllimlik müqəddəs və şərəfli peşədir. Əsl müəllim sanki bir Günəşdir. Gözünün və dünyasının nurunu zərrə-zərrə şagirdlərinin yoluna səpən, əli, ayağı, ürəyi taqətdən, gözü nurdan düşsə də, özü daim məğrur, əyilməz, daim parlaq olan Günəş...**

Hər gün qürub edib, hər səhər yenidən doğan Günəş kimi müəllim də yaşının üstünə yaş gəldikcə, ömrünün qürub çağını yaşasa da, yetirmələrinin simasında yenidən cana, yenidən dünyaya gəlir. Deməli, əsl müəllim əbədi yaşayır...

Həyatını övladlarımıza həsr edən müqəddəs peşə sahiblərinin - Müəllimlərin günüdür.

Hər kəs özünün məktəbdə oxuduğu illəri yada salarkən, bu xatirələrdə ən təmiz yer, həm də ona sevgi və qayğı ilə qələm tutmağı, yazmağı, oxumağı öyrədən müəllimlərdir. Müəllim həyatımızın, taleyimizin memarlarıdır desək, yanılmarıq.

Hər il oktyabrın 5-i bütün dünyada "Müəllimlər günü" kimi qeyd olunur.

Yeri gəlmişkən, bu ilin iyul-avqust aylarında ölkəmizdə keçirilən müsabiqədə 46839 namizəd iştirak edib, onlardan 4053 nəfər bu şərəfli adı daşımaq hüququ qazanıb.

Bu bir zirvədir, onu fəth etmək çətindir, şərəfini, yüksəkliyini qorumaq daha da çətindir.

Gözünüzə işıq, ürəyinizə qüvvət, arzu və məramınıza xeyir-bərəkət, əzizlərimiz!

Haqqınız ödənməz, haqqınızı halal edin...

***Aytən Tahirova,***
***polis leytenantı***



tutub.

DİO-nun nizami hissələri arasında keçirilən yarışda qələbə uğrunda Daxili Qoşunların Baş İdarəsi, Bakı Şəhər Baş Polis İdarəsi, Baş Mühafizə İdarəsi, Nəqliyyatda Baş Polis İdarəsi, Polis Akademiyası, Əlahiddə Çevik Polis Alayı, Baş Dövlət Yol Polisi İdarəsi olmaqla 7 komanda 2 qrupda mübarizə aparıblar. Tədbirin əsas məqsədi həm də DİN-in yığma komandasını müəyyənləşdirməkdən ibarət olub.

# VOLEYBOL ÇEMPİONATI KEÇİRİLİB

**Ölkədə idmana dövlət səviyyəsində diqqət və qayğı daxili işlər orqanlarında da özünün müsbət nəticələrini göstərir. İdmançı əməkdaşlarımızın qələbə sorağı müxtəlif beynəlxalq yarışlardan gəlir.**

Şəxsi heyət arasında mənəvi-psixoloji və fiziki hazırlığın yüksək səviyyədə saxlanılmasını təmin etmək məqsədi ilə mütəmadi olaraq, daxili işlər orqanlarının əməkdaşları arasında da idmanın müxtəlif sahələrinə aid yarışlar keçirilir. Bu günlərdə Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin təqvim planına uyğun olaraq, voleybol üzrə nazirliyin strukturları arasında növbəti turnir baş

Gərgin keçən turnirin finalında Baş Mühafizə İdarəsi ilə Bakı Şəhər Baş Polis İdarəsinin komandaları üz-üzə gəlib. Oyun Baş Mühafizə İdarəsinin komandasının 2:0 üstünlüyü ilə başa çatıb. Üçüncü yerin sahibi isə Nəqliyyatda Baş Polis İdarəsini məğlub edən Polis Akademiyasının kollektivi olub.

Yarışdan sonra qaliblərin mükafatlandırılması mərasimi olub.

Qeyd edək ki, Baş Mühafizə İdarəsinin voleybol komandası artıq 11-ci ildir ki, ardıcıl olaraq qalib gəlir.

***Anar Qafarov,***
***polis baş leytenantı***

# BİZ SİZDƏN ÖYRƏNDİK, SİZDƏN ÖYRƏNİRİK

**Oktyabrın 5-i həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin günüdür.**

1966-cı ildə UNESCO və Beynəlxalq Əmək Təşkilatının birgə təşkilatçılığı ilə çağırılan konfransda müəllimlərin peşə fəaliyyətinin şərtlərini təyin edən "Müəllimlərin statusu haqqında" ilk beynəlxalq sənəd imzalanmışdır. 1994-cü ildən isə həmin tarix UNESCO tərəfindən Ümumdünya Müəllimlər Günü kimi təsis edilmişdir. Bu tarix həmçinin BMT-nin də beynəlxalq və ümumdünya günlər sisteminə daxildir.

Hazırda dünyanın 100-dən çox ölkəsində keçirilən Müəllimlər günü bəzilərində müxtəlif tarixlərdə qeyd olunur.



Məsələn, Albaniyada 8 martda, Cənubi Koreyada 15 mayda, Argentinada 11 sentyabrda, Çində 28 sentyabrda, Özbəkistanda 1 oktyabrda, Türkiyədə 24 noyabrda Müəllimlərin günüdür . Ölkəmizdə bu ümumxalq bayramı 1993-cü ildən keçirilir.

Deyirlər, bir milləti məhv etmək üçün onun müəlliminin və həkiminin savadsız olması kifayətdir: biri onu mənəvi cəhətdən, digəri isə fiziki cəhətdən şikəst edəcək. Müdrik sözdür.

Həzrət Əli deyib bu sözü də: Mənə bir hərf öyrədənin köləsi olaram.

Siz bizlərə yazmağı, oxumağı, Vətəni, dünyanı, həyatı sevməyi, yaşamağı öyrətdiniz. Kim bundan nəsibini ala bilibsə, o xoşbəxtdir. Siz var olun ki, biz də xoş bəxt, xoş tale, insan olaq.

***Ruhiyyə Əliyeva,***
***polis leytenantı***

# Yeni nəsil şəxsiyyət vəsiqəsində...

**Məlum olduğu kimi, bu il sentyabrın 1-dən ölkədə yeni nəsil elektron şəxsiyyət vəsiqəsinin tətbiqinə başlanılmışdır. Qanunvericiliyə əsasən həmin sənəd sahibinin yaşayış yeri, ailə vəziyyəti və hərbi vəzifəsi barədə dəyişə bilən məlumatlar elektron daşıyıcıda (çipdə) yerləşdirilir.**

Şəxsiyyət vəsiqəsinin çipində göstərilən məlumatların oxunması üçün nəzərdə tutulmuş xüsusi fayllar istehsalçı şirkət tərəfindən təqdim olunmuşdur. Həmin faylları Daxili İşlər Nazirliyinin **(mia.gov.az)** və Baş Pasport Qeydiyyat və Miqrasiya İdarəsinin **(bpqmi.gov.az)** rəsmi internet saytlarında yerləşdirilmiş

**(https://mia.gov.az/?/az/news/view/1237/)** və

**(http://www.bpqmi.gov.az/?/az/news/view/117/)**

linklərindən yükləyərək istifadəçi təşkilatın (fiziki və hüquqi şəxsin) istifadə etdiyi proqram təminatına inteqrasiya etməklə vəsiqə sahibi barədə məlumatları xüsusi qurğu (çip rider) vasitəsilə oxumaq və zərurət olduqda eksport etmək mümkündür.

***Natiq Cavadov***

# BAKI ŞƏHƏR BAŞ POLİS İDARƏSİNDƏN

Sentyabrın 29-da bir sıra siyasi partiya və ictimai birlik rəhbərlərinin yaratdığı Qarabağ Komitəsi "Qarabağa azadlıq!" şüarı ilə Yasamal rayonundakı idman-sağlamlıq kompleksinin stadionunda Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış mitinq keçirib.

Saat 15:00-dan 17:00-dək davam edən toplantıda Qarabağ Azadlıq Təşkilatı, Azərbaycan Xalq Partiyası, Klassik Xalq Cəbhəsi, Ümid, Milli Demokrat, Azərbaycan Liberal Demokrat, Gələcək Azərbaycan, Vətəndaş və İnkişaf, Vətəndaş Həmrəyliyi partiyaları, Ağ Partiyası, eləcə də Müsavat və Azərbaycan Xalq Cəbhəsi partiyalarının üzvləri, qeyri-hökumət və gənclər təşkilatlarının ümumi sayı 2000 (iki min) nəfərədək olan üzvü və təəssübkeşi iştirak edib.

Bu zaman ictimai asayişin və hüquq qaydasının kobud şəkildə pozulması halları qeydə alınmayıb.

***29 sentyabr 2018-ci il.***

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ TİBB İDARƏSİNİN MÜALİCƏ – PROFİLAKTİKA MÜƏSSİSƏLƏRİNDƏ VAKANT OLAN HƏKİM VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Elan olunmuş müsabiqədə dövlət ali təhsil müəssisələrində narkoloq, uroloq, otolorinqoloq, travmatoloq, psixonevroloq, neyrocərrah və provizor ixtisası almış, tibb və təhsil müəssisələrində həmin ixtisas üzrə rezidentura keçmiş, ixtisas üzrə azı 5 il praktiki təcrübəyə malik, yaşı 35-dən yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2018-ci il **sentyabr ayının 15-dən oktyabr ayının 15-dək http://www.mia.gov.az/index.php?/az/content/29942 ünvanında** yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə Daxili İşlər Nazirliyinin **Tibb İdarəsinin internet medical@mia.gov.az ünvanına** göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-şəxsiyyət vəsiqəsi;*
*-ali təhsil haqqında diplom;*
*-hərbi bilet (kişilər üçün);*
*-əmək kitabçasının surəti*

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək ilkin olaraq, 500 manat aylıq təminat xərcliyi, eləcə də göstərdiyi pullu xidmətə görə əlavə pul vəsaiti ödəniləcək, habelə onların qanunvericiliklə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaqdır.

Əlavə məlumat almaq üçün əlaqə telefonları:
**012-590-20-59**
**012-590-20-94.**

***DİN-in Baş Kadrlar İdarəsi***

# DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏ RESPUBLİKA BAŞ PROKURORLUĞU MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Sentyabrın 25-də Qazax Rayon Müalicə Diaqnostika Mərkəzindən rayon sakini Elmir Axundovun ölmüş vəziyyətdə təcili-tibbi yardım briqadası tərəfindən xəstəxanaya gətirilməsi barədə daxil olmuş məlumat əsasında dərhal Rayon Prokurorluğu və Polis Şöbəsinin əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə meyitə baxış keçirilmiş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış ilkin araşdırmalarla müəyyən edilmişdir ki, E.Axundovun anası sentyabrın 24-də Rayon Prokurorluğuna müraciət edərək oğlunun rayon sakini Kərim Əhmədov tərəfindən döyülməsini bildirmişdir. Müraciət əsasında E.Axundovun izahatı alınmış, barəsində məhkəmə-tibbi ekspertizası təyin olunaraq müayinə edilmiş və döyülmə nəticəsində bədənində xəsarətlər aşkar edilmişdir.

Eyni zamanda, qeyd edilən tarixdə K.Əhmədov da Rayon Polis Şöbəsinə müraciət edərək E.Axundov tərəfindən döyüldüyünü bildirmişdir. Bununla əlaqədar sentyabrın 25-də E.Axundov izahatının alınması məqsədilə Rayon Polis Şöbəsinə dəvət edilmiş və həmin gün saat 22 radələrində səhhətinin pisləşdiyi üçün Təcili-Tibbi Yardım xidmətinə müraciət olunmuş, həkim briqadası Rayon Polis Şöbəsinə gələrək E.Axundovu ölmüş vəziyyətdə rayon Diaqnostika Mərkəzinə aparmışdır.

Faktla bağlı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 124.1 (ehtiyatsızlıqdan adam öldürmə) və 221.3-cü (xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə) maddələri ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilmişdir.

Cinayət işinin istintaqı Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən nəzarətə götürülməklə hər iki qurumun məsul əməkdaşları Qazax rayonuna ezam olunmuşdur.

K.Əhmədov iş üzrə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunmuşdur.

Hazırda iş üzrə digər təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

*27 sentyabr 2018-ci il.*


# Xəzri sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 16 sentyabr 2018-ci il tarixdən 31 may 2019-cu il tarixədək mövsüm üzrə qiymətləri (daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd: 1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Bir günlük xərc tək polis əməkdaşı üçün 28.75 manat (iki nəfərlik nömrəni tək tutduqda 42.50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 86,36 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 72,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 115 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 145 manat təşkil edir.

**3.** Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

**4**. 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, trenajorlardan, akvaparkdan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metrostansiyasından 171 nömrəli avtobus gəlir.

**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 16 sentyabr 2018-ci il - 31 may 2019-cu il (2 nəfərlik standart otağın qiyməti : iki nəfər qaldıqda 160 manat, bir nəfər tək qaldıqda 120 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 20,00 manat | 30,00 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 40,00 manat | 60,00 manat |
| Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 80,00 manat | 120,00 manat |
| Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |


**Sentyabrın 22-dən 24-dək pauerliftinq üzrə ölkə kuboku yarışı keçirilib. Respublikamızın ən güclü atletlərinin qələbə uğrunda mübarizəsində polis idmançılar da yüksək nəticələr əldə ediblər.**

# ƏN GÜCLÜ ATLETLƏRİN YARIŞINDA



İsmayıllı RPŞ-nin əməkdaşı, altıqat dünya çempionu Kamil Qafarov çəkisi 90 kiloqramadək olan idmançılar arasında "bench press" (ştanqı sinədən qaldırma) hərəkətində 215 kiloqram nəticə ilə bütün rəqiblərini geridə qoyaraq turnirin baş mükafatına sahib olub.

Eyni hərəkətin yerinə yetirilməsində Səbail Rayon Mühafizə İdarəsinin əməkdaşı, dəfələrlə dünya və Avropa çempionatlarının iştirakçısı və qalibi Razim Hüseynov ən ağır çəkili pəhləvanların sırasında 240 kiloqram nəticə ilə medal kolleksiyasına daha bir qızıl medal əlavə edib.

"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Mühafizə Şöbəsinin əməkdaşı Roman Əhmədov çəkisi 80 kiloqramadək olan idmançılar arasında "deadlift" (ştanqı qurşağadək dartma) hərəkətində 212,5 kiloqram nəticə ilə fəxri kürsünün ikinci pilləsində yer alıb.

***Xəyalə Məmmədova, polis leytenantı***




Bu ilin sentyabr ayına olan məlumata görə, terrorçuluq və ekstremist təmayüllü cinayətlər törətdiklərinə görə MDB ölkələrinin 9 mindən çox vətəndaşı dövlətlərarası axtarışdadır. Bunu MDB Terrorçuluqla Mübarizə Mərkəzinin rəhbəri Andrey Novikov deyib. Onun sözlərinə görə, 5 mini muzdlular, yəni qanunsuz silahlı birləşmələrin və beynəlxalq terror təşkilatların heyətində üçüncü ölkə ərazisindəki döyüş əməliyyatlarında iştirak edən şəxslərdir.

*****

*Ötən il dünyada müxtəlif terror hücumlarının sayı 23 faiz azalıb. Bu barədə məlumat ABŞ Dövlət Departamentinin hazırladığı dünyada terrorçuluqla mübarizə problemlərinə dair növbəti illik hesabatda qeyd olunub. Araşdırma 2017-ci ili əhatə edir.*

*Ötən il terror aktları ümumilikdə 100 dövlətin ərazisində baş verib və onların 93 faizi beş ölkənin – Əfqanıstan, Hindistan, İraq, Pakistan və Filippinin payına düşüb. Bundan əlavə, terror nəticəsində bütün ölüm hallarının 70 faizi də beş ölkədə – Əfqanıstan, İraq, Nigeriya, Suriya və Somalidə qeydə alınıb.*

*****

İranın Sistan-Bəlucistan bölgəsindəki İranşəhrdə 1 ton 669 kiloqram narkotik maddə müsadirə edilib. Bölgənin Daxili Təhlükəsizlik Qüvvələrinin komandanı, general Məhəmməd Qənbəri bildirib ki, operativ məlumatlar əsasında həyata keçirilmiş əməliyyat nəticəsində İranşəhrə daxil olan yük avtomobili saxlanılıb. Avtomobilə baxış keçirilib və yük yerində 1 ton 621 kiloqram tiryək, 23 kiloqram heroin, 5 kiloqram həşiş və 20 kiloqram digər narkotik maddələr aşkar olunaraq müsadirə edilib.

*****

*ABŞ-ın Texas Ştatında həbsxanaya göndərilən nəhəng kokain partiyası ələ keçirilib. On səkkiz milyon dollar dəyərində olan narkotik həbsxanaya bağışlanan bananlar vasitəsi ilə keçirilməli imiş.*

*Texasın Cinayət Ədliyyə Departamenti bananların artıq olduqları üçün həbsxanaya bağışlanması barədə deyilənləri "olduqca şübhəli" hesab ediblər. "Qutulardan biri digərlərindən fərqlənirdi" – polisin bəyanatında bildirilib.*

*Həbsxanaya gələn səlahiyyətlilər paketin içərisindəkinin kokain olduğu aşkarlayıblar. Hər birində 1 kiloqram olan 540 bağlama aşkarlanıb. Onların ümumi dəyəri isə 17 milyon 820 min ABŞ dolları təşkil edir.*

***Natiq Cavadov***

# HİKMƏT XƏZİNƏSİNDƏN

◆Mən çox şeyi müəllimlərimdən öyrəndim, daha çox şeyi yoldaşlarımdan, bundan da çox şeyi şagirdlərimdən öyrəndim.
◆Əgər müdriksənsə, varlının, hökmdarın, uşağın, qocanın, arvadın, axmağın və müəllimin əleyhinə getmə.
◆Ölkəni inkişaf etdirib irəli aparan elm və təhsildir.
◆Xətasız olmaq yox, xətalardan dərs almalıyıq.
◆Hər kəsin dəyəri onun biliyi qədərindədir.
◆Ən ağıllı filosoflar belə axmaq suallara cavab verməyə çətinlik çəkirlər.
◆Hər cür bilik müşahidələrə və təcrübəyə əsaslanır.
◆Öyrəndiklərini etsən, susduğun vaxt işlərin danışar.
◆Biliyin ağası olmaq üçün zəhmətin köləsi olmaq gərəkdir.
◆Bilik güc, güc isə bilikdir.
◆Biləyi güclü birini yıxar, biliyi güclü minini.
◆Bilikli adamın bir günü nadanın bütün ömrünə bərabərdir.
◆Gənc ikən bilik ağacını əkməsək, qocaldığımız zaman kölgəsinə sığınacaq bir yerimiz olmaz.
◆Bir alimdən: "Kimi ağsaqqal saymaq olar?"- deyə soruşduqda, o, "Elmi başqalarına öyrədən elm sahiblərini"- cavabını vermişdir.

***Çapa hazırladı: T.Aytən***

Yevlax RPŞ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti rəis müavini Farid Vəliyevə anası

**RAHİLƏ xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti iş yoldaşları Rəşad Rəhimova atası

**MAYIL kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti Rəşad Rəhimova atası

**MAYIL kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.279
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00